## BAXIŞ MÜSABİQƏSİNİN NƏTİCƏLƏRİ MƏLUM OLUB

*Daxili İşlər Nazirinin müavini – Daxili Qoşunların Komandanının müvafiq əmrinə əsasən, avqust ayının 1-dən 31-dək Ali Hərbi Məktəbdə və hərbi hissələrdə təbliğat və təşviqat işinə, özfəaliyyət kollektivlərinə baxış müsabiqəsi keçirilib. Müsabiqə zamanı 12318, 16073 saylı hərbi hissələr və Ali Hərbi Məktəb daha yüksək nəticələr əldə edib.*







Bundan əlavə, müxtəlif hərbi hissələr bölmələrin ictimai-siyasi və mədəni-maarif otaqlarının, qarovul məntəqələrinin, klub və kitabxananın, idman və təlim şəhərciklərinin, döyüş şöhrəti otaqlarının tərtibatında müsbət cəhətdən fərqlənmişlər.

Özfəaliyyət kollektivlərinə keçirilən baxış müsabiqəsinə əksər hərbi hissələr ciddi yanaşaraq, rəngarəng konsert proqramları hazırlanmışdır.

Ümumilikdə, müsabiqənin nəticələri hərbi hissələr üzrə aşağıdakı kimi müəyyən olunub:

**I yer - 12318 və 16075 saylı hərbi hissələr;**
**II yer - 16073 və 17074 saylı hərbi hissələr;**
**III yer - Ali Hərbi Məktəb və 12565 saylı hərbi hissə.**

Qeyd edək ki, baxış müsabiqəsinin nəticələrinə görə, ilk üç yeri tutmuş hərbi hissələr, eyni zamanda, xidməti-vəzifə borclarının icrasına məsuliyyətlə yanaşan hərbi qulluqçular Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanının və hərbi hissə komandirlərinin müvafiq əmrləri ilə mükafatlandırılıblar.

**Mətbuat xidməti**

## "HƏRBİ QULLUQÇULARIN PEŞƏKARLIQ VƏRDİŞLƏRİNİ TƏKMİLLƏŞDİRMƏK ƏSAS VƏZİFƏMİZDİR"

***16075 saylı hərbi hissənin qərargah rəisinin döyüş təlimi üzrə müavini kapitan Elşad Məmmədov nizam-intizamı, bacarığı ilə tabeliyində olan hərbi qulluqçulara nümunədir. Döyüş hazırlığının daima yüksək səviyyədə saxlanılması, şəxsi heyətin döyüş ruhunun formalaşdırılması üçün bütün zəruri tədbirləri həyata keçirən kapitan E.Məmmədov hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur. O, xidmətdə tələbkarlıq və əzmkarlığı ən vacib faktorlardan biri kimi dəyərləndirərək, təlim proqramlarına ciddi riayət olunmasını, məşğələlərin vaxtında, tələb olunan maddi tədris bazasından istifadə edilməsini hər zaman nəzarətdə saxlayır.***

Kapitan E.Məmmədov döyüş təliminin Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının müvafiq direktivinin tələblərinə və hərbi hissə komandirinin təsdiq etdiyi günün nizam qaydalarına əsasən təşkil olunduğunu bildirdi.

Diqqətə çatdırdı ki, təsdiq olunmuş nəzarət cədvəlinə əsasən idarə heyətinin xidmət rəislərinin iştirakı ilə keçirilən təlim prosesi diqqətdə saxlanılır. Təlimlərin keçirilməsində əsas



məqsəd hərbi qulluqçuların peşəkarlığının, ictimai-siyasi biliklərinin artırılmasıdır.

Təlimlər zamanı bütün kateqoriyalı komandir heyəti tərəfindən tabeçiliyində olan hərbi qulluqçuların hazırlıq səviyyəsinin artırılması məqsədilə onlara məsuliyyət hissi aşılanır, məsləhətlər verilir və qabaqcıl təcrübə mübadiləsi aparılır.

Hər bir hərbi qulluqçunun təlim və məşğələlərdə göstərdiyi bilik və bacarıq fərdi qaydada qiymətləndirilir. Keçirilən mövzuları zəif mənimsəyən hərbi qulluqçular təkrar məşğələlərə cəlb olunurlar.

Kapitan E.Məmmədov qeyd etdi ki, üzərilərinə düşən əsas vəzifə döyüş təliminin keyfiyyətinin artırılması, hərbi hissələr arasında bu sahədə qabaqcıl yer tutmaqdır.

Yeri gəlmişkən qeyd edək ki, xidmətin təşkilində, müvafiq sənədlərin qəbulu, təsnifatı və dövriyyəsində qərargahın döyüş təlimi bölməsinin kargüzarı kiçik çavuş Səkinə Həsənova da əlindən gələni əsirgəmir. Kapitan E.Məmmədovun sözlərinə görə, kiçik çavuş S.Həsənova vəzifəyə yeni təyin olunmasına baxmayaraq, işin məsuliyyətini dərindən dərk edir, verilən tapşırıqları qeyd-şərtsiz və keyfiyyətlə yerinə yetirir.

**leytenant N.Ağayeva**

## NÜMUNƏVİ XİDMƏT

**Kapitan Zülfüqar Quliyev Daxili Qoşunların bilik və bacarıqlı zabiti kimi xarakterizə edilir.**

O, 1992-ci il dekabrın 10-da Gədəbəy rayonunun Çayrəsullu kəndində anadan olub.

2001-2002-ci illərdə Daxili Qoşunların 17074 saylı hərbi hissəsində müddətli həqiqi hərbi



xidmət keçib. Vətənə sevgisindən irəli gələn arzusunu reallaşdırmaq üçün müddətli həqiqi hərbi xidmətini başa vurub, 2002-ci ildə Daxili Qoşunların 25031 saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçu kimi xidmətini davam etdirib. 2006-2008-ci illərdə Orta İxtisas Hərbi Məktəbində təhsil alıb. Məktəbi müvəffəqiyyətlə bitirdikdən sonra Daxili Qoşunların 99713 saylı hərbi hissəsində mühəndis-istehkam qrupunun komandiri vəzifəsinə təyin olunub. O, taqım komandiri, bölük komandirinin müavini vəzifələrində çalışıb. Hərbi hissə komandanlığının və kollektivin rəğbətini qazanaraq, hərbçi yoldaşlarına nümunə olmağı bacarıb.

2013-cü ilin mart ayından 17074 saylı hərbi hissənin tərbiyə işləri üzrə bölməsində təlimatçı vəzifəsində xidmət edir. Üzərinə düşən məsuliyyəti dərindən dərk edərək, vəzifə borcunun öhdəsindən layiqincə yerinə yetirir. Hərbi qulluqçularla ictimai-siyasi hazırlıq məşğələlərinin keyfiyyətlə keçirilməsinə nəzarət edir, tərbiyə işinin yüksək səviyyədə təşkili, eləcə də hərbi hissədə sağlam mənəvi-psixoloji mühitin yaradılması üçün əlindən gələni əsirgəmir. Bununla yanaşı o, qanunçuluğun, hərbi intizamın möhkəmləndirilməsində bütün səylərini səfərbər edir.

Xidməti borcunun məsuliyyətini anlayan kapitan Z.Quliyev verilən tapşırıqları dəqiq və vaxtında yerinə yetirir.

* * * *

**Daxili Qoşunlarda xidmət edən nümunəvi hərbi qulluqçulardan biri də gizir Rəqsanə Lələyevadır.**



O, 1987-ci il avqustun 23-də Balakən rayonunun Katex kəndində anadan olub. Ali təhsillidir. 2004-2008-ci illərdə Azərbaycan Beynəlxalq Universitetinin "Maliyyə-kredit" fakültəsini bitirib.

2015-ci ilin yanvar ayından Daxili Qoşunların 17074 saylı hərbi hissəsinin Qərargahında Şəxsi heyətin uçotu üzrə məsul icraçı vəzifəsində çalışır. Nümunəvi hərbi qulluqçumuz xidmətə başladığı ilk gündən bilik və bacarığı, xoş rəftarı ilə kollektivin rəğbətini qazanıb. Hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur.

Hərbi xidmətin məsuliyyətini və çətinliyini dərk edən gizir R.Ləyeva verilən tapşırıqları sözsüz yerinə yetirir. Daima öz üzərində çalışaraq keçirilən məşğələlərdə fəallıq nümayiş etdirir.

* * * *

**Əsgər Rəhim Bədəlov 17072 saylı hərbi hissənin nümunəvi hərbi qulluqçularındandır.**

O, 1996-cı il may ayının 8-də Bakıda anadan olub. Orta məktəbi bitirdikdən sonra 2016-cı ilin yanvar ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Hazırda hissənin komendant taqımında xidmətini davam etdirir.

Əsgər R.Bədəlov da bir çox gənclər kimi hərbi xidmətə çağırışı sevinclə qarşıladığını və Daxili Qoşunların sıralarında Vətənə xidmət etməkdən böyük qürur duyduğunu bildirdi. İlk gündən keçirilən təlimlərə, məşğələlərə ciddi yanaşan, komandirlərin verdiyi tapşırıqları hər zaman vax-



tında və keyfiyyətlə yerinə yetirən hərbi qulluqçumuz xidmətin məsuliyyətini dərindən dərk edir, üzərinə düşən vəzifələrin icrasına vicdanla yanaşır. Ona təhkim olunmuş silahın taktiki-texniki xüsusiyyətlərini mənimsəyən hərbi qulluqçumuz atəş məşğələləri zamanı da fəallıq göstərir və yüksək nəticələr əldə edir.

Verilən tapşırıqları dəqiq və vaxtında yerinə yetirən əsgər R.Bədəlov xidməti-döyüş fəaliyyətinə bundan sonra da məsuliyyətlə yanaşacağını bildirdi.

**gizir L.Hüseynova**

## HƏRBİ XƏBƏRLƏR

### "HAVELSAN" SNAYPERİ AŞKAR EDƏN SİSTEM YARADIB

Türkiyənin "HAVELSAN" şirkəti snayper tüfəngini aşkar edən "Ateşkes" adlı sistem yaradıb. Sistemdə siqnalları qəbul edib aşkarlamaq üçün 8 mikrofon istifadə edilir. "Ateşkes" sistemi snayperi tüfəngdən güllənin çıxarkən yaratdığı səs, o cümlədən, mərmi havada olan zaman meydana gətirdiyi dalğalar sayəsində aşkar edir.

Sistem atəş mövqeyini və istiqaməti GPS vasitəsi ilə hesablayır. Cihazlardan təhlükə yaradan ərazilərdə bir neçəsinin istifadə edilməsi nəzarəti təmin etmək imkanı yaradır.



Cihazlar məsafədən bir-biri ilə xəbərləşə və bununla da ərazidə daha çox müvəffəqiyyət əldə edə bilir.

Sistemin təsir dairəsi istifadə olunan silahın tipinə görə dəyişir. Qurğu snayper tüfəngini 500 metrə qədər məsafədə aşkar edə bilir. Sistemin aşkarlama məsafəsinin nəzəri olaraq 1-2 kilometrə qədər çıxa biləcəyi mümkündür.

### AZƏRBAYCANIN YENİ MAŞINI – "İLDIRIM"

Müdafiə Sənayesi Nazirliyinin (MSN) "Cihaz" İstehsalat Birliyi tərəfindən istehsal edilmiş "İldırım" adlı zirehli maşının 2017-ci ildən seriyalı istehsalına başlanılması planlaşdırılır.

Minaya qarşı qorumalı nəqliyyat vasitələri (MRAP) sinfinə aid olan "İldırım"ın ilk nümunəsi "ADEX-2016" sərgisində nümayiş olunub.

Altı silindrli, 265 at gücündə "Cummins İSBe 270 BS-III" mühərriki, mexaniki transmissiya və havalandırma sistemi ilə təchiz olunmuş maşının uzunluğu 7350 mm, yerdən hündürlüyü 400 mm, boş ağırlığı 13 ton, döyüş ağırlığı 15.5 ton, sürəti 90 km/saat, gediş ehtiyatı 600 kilometrdir.



Maşın yanlarda 2 ədəd və arxada mexaniki açılıb bağlanan qapılara, damda isə iki lyuka sahibdir. "İldırım" salonda tam təchizatlı 10 əsgəri daşımağa imkan verir. Maşın hərəkətdə olarkən yan pəncərələrdəki mazğallardan kiçik çaplı atıcı silahlarla atəş açmaq mümkündür.

"İldırım" sifarişçinin ehtiyacına uyğun olaraq açıq silah qülləsi, yaxud distans döyüş modulu ilə də silahlandırıla bilir. Maşın üçün MSN tərəfindən 14.5 mm-lik pulemyotla dəstləşdirilmiş "Şimşək" adlı döyüş modulu hazırlanıb.

"İldırım" MRAP-ın polis və digər güc strukturları üçün nəzərdə tutulmuş "İldırım MLS" versiyası yolsuzluq şəraitində yüksək performans nümayiş etdirir. "İldırım MLS" avtomobilinin uzunluğu 6308 mm, eni 2530 mm, sürəti 80 km/saat, çəkisi 13 tona yaxındır.

### UKRAYNA "TAİPAN" DÖYÜŞ MODULUNU NÜMAYİŞ ETDİRİB

Ukraynanın "SpetsTehnoEksport" müəssisəsi "ADEX-2016" sərgisində AZCAN nəqliyyat vasitəsinin üzərində özünün "Taipan" adlı döyüş modulunu nümayiş etdirib.

"Taipan" döyüş moduluna əsas silah olaraq bir ədəd ikilüləli 23 mm, yardımçı silah olaraq bir ədəd 7.62 (yaxud 12.7 mm) mm çaplı pulemyot, yaxud 30 mm çaplı qumbaraatan qurğusu daxil edilə bilir.



"Taipan" 23 mm çaplı pulemyotla 1.8 km məsafədə hədəflərə effektiv atəş aça bilir. Döyüş modulunun çəkisi 350 kiloqramdır. Modulun maşından 500 metr kənar məsafədən idarə olunması mümkündür.

### YENİ OPTİK CİHAZLARIN İXRACINA BAŞLANILACAQ

Azərbaycan periskoplar daxil olmaqla bir neçə adda optik cihazın ixracına başlayacaq. Hazırda "Optika-Mexanika" İstehsalat Birliyi Azərbaycan Silahlı Qüvvələrini və digər güc strukturlarını ehtiyac duyulan optik cihazlarla tam təmin edir. Müəssisədə K-1 adlı top kollimatoru, MTON adlı minaatanın optik nişangahı, QON adlı qumbaraatan optik nişangahı, RS-M adlı kollimator, SAK adlı soyuq atəş kollimatoru, snayper tüfəngləri üçün STON adlı 4-14×50 və 6-24×50 böyütməyə malik iki optik nişangahlar, A-100 gecəgörmə cihazı, 7 və 10 dəfə böyütməli kompaslı prizmatik binokllar, 12 və 14 dəfə böyütmə qabiliyyətinə malik periskoplar istehsal olunur.

### Allah rəhmət eləsin

Daxili Qoşunların Komandanlığı və şəxsi heyəti ehtiyatda olan **polkovnik Rasim Heydərovun** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

17074 saylı hərbi hissənin şəxsi heyəti gizir Leyla Əliyevaya **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: X.Tağıyeva

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonu : (012) 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
İlham ƏLİYEV

ƏSGƏR

№ 20 (486)
15 oktyabr 2016-cı il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN-in Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

## PREZİDENT İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ NAZİRLƏR KABİNETİNİN 2016-cı İLİN DOQQUZ AYININ SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASI KEÇİRİLİB

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə oktyabrın 7-də Nazirlər Kabinetinin 2016-cı ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib.***





Dövlətimizin başçısı iclası giriş nitqi ilə açıb. Prezident İlham Əliyev bildirib ki, 2016-cı il dünya iqtisadiyyatı üçün çox ağır il olub. Dünya iqtisadiyyatında böhranlı vəziyyət davam edir. Bu böhrandan həm təbii resurslarla zəngin olan ölkələr, eyni zamanda, istehlakçı ölkələr əziyyət çəkir: "Neftin qiyməti düşdü və bunun nəticəsində dövlət investisiyaları azaldı, tikinti sektoruna az sərmayə qoyuldu və bu, müəyyən qədər iqtisadi tənəzzülə gətirib çıxardı. Ancaq sevindirici hal ondan ibarətdir ki, bizim sənayemiz artır. Sənaye potensialımız baxmayaraq ki, az artır - 0,2 faiz, amma artır. İqtisadiyyatımızın, sənayemizin qeyri-neft sektoru artır, orada artım 3,6 faizdir, bu, yaxşıdır. Kənd təsərrüfatı 2,4 faiz artıb və əminəm ki, daha da artacaq. Çünki kənd təsərrüfatı sahəsində apardığımız işlər yaxın gələcəkdə daha da böyük həcmdə nəticə verəcək".

Sosial layihələrin icra edildiyini deyən dövlət başçısı qeyd edib ki, 29 məktəb tikilib, 485 məktəbdə təmir işləri aparılıb, 33 səhiyyə obyekti inşa olunub, təmir edilib. "Böyük yol layihələri, kənd yolları layihələri icra edilib. Bir neçə şəhərimizdə içməli su layihələri başa çatıb. İnfrastruktur layihələri icra edilir, 154 min iş yeri yaradılıb, onlardan 121 mini daimi iş yeridir. Doqquz ayda 36 min iş yeri bağlanıb. Əlbəttə, biz bağlanan iş yerləri ilə əlaqədar daim təhlil aparırıq - 121 min daimi iş yeri yaradılıb, 36 min iş yeri bağlanıb. Bu, çox gözəl göstəricidir. Hesab edirəm ki, böhranlı il üçün bu, xüsusi bir göstəricidir".

Dövlət başçısı vurğulayıb ki, bu ilin aprel ayında Azərbaycan böyük hərbi qələbə əldə edib. Aprel döyüşləri tariximizin şanlı səhifəsidir: "Biz təmas xəttində tam üstünlük əldə etmişik və bu gün düşmənin istənilən hədəfini məhv edə bilərik".

Respublika Prezident bildirib ki, həm iqtisadi, siyasi, həm də hərbi cəhətdən daha da güclü olmalıyıq və bu güc bizdə var: "Sadəcə olaraq istəyirik ki, məsələ sülh yolu ilə həll edilsin və bu istiqamətdə ardıcıl siyasətimizi aparırıq.

Siz yəqin ki, Amerikadan səslənən son bəyanatı da eşitmisiniz, oxumusunuz, Azərbaycan ictimaiyyəti də bunu bilir. Bu, yumşaq desək, təəccüb doğuran bir bəyanatdır. Azərbaycanı münaqişənin həll olunmamasında günahlandırmaq ən azı insafsızlıqdır. Digər tərəfdən, bax, bu bəyanat o biri bəyanatlarla necə uzlaşır?! Axı, Amerika, Rusiya, Fransa prezidentlərinin dəfələrlə bəyan etdikləri bir tezis var: "Status-kvo qəbuledilməzdir". Biz bunu alqışlayırıq. Düzdür, bu sözdən sonra heç bir praktik iş aparılmır. Amma hər halda bu sözün artıq ortaya çıxması bizim böyük uğurumuzdur".

2016-cı ildə dünyada siyasi və hərbi böhran yaşandığını vurğulayan dövlət başçısı qeyd edib ki, müxtəlif bölgələrdə qanlı toqquşmalar, müharibələr alovlanır, risklər, təhdidlər artır: "Yaxın Şərqdə vəziyyət deyə bilərəm ki, kritik həddə çatıb. Yaxın Şərqdə müşahidə olunan qarşıdurma çox böyük fəlakətə gətirib çıxara bilər. Çünki hamımız yaxşı görürük ki, vəziyyət getdikcə kəskinləşir".

Prezident İlham Əliyevin sözlərinə görə, bizim üstünlüyümüz ondan ibarətdir ki, həmişə öz yolumuzla gedirik, öz siyasətimizi aparırıq, heç kimin sözü ilə oturub-durmuruq. Ona görə bu gün Azərbaycanda inkişaf və sabitlik var.

Bu il ölkəmiz üçün çox böyük əhəmiyyət daşıyan referendumun keçirildiyini deyən Prezident İlham Əliyev qeyd edib ki, müşahidə aparan beynəlxalq qurumlar, xüsusilə Avropa Şurası Parlament Assambleyasının nümayəndələri referenduma çox yüksək qiymət veriblər: "Bunun da çox böyük əhəmiyyəti var. Çünki adətən Avropa strukturlarında bizi tənqid edirlər. Bir çox hallarda əsassız tənqid edirlər. Ancaq hətta bizi tənqid etməyə öyrəşən qurum da artıq heç bir irad tapa bilmir. Bu, referendumun bir nəticəsidir. Bu, onu göstərir ki, kim nə deyirsə-desin, hansı uydurma ortaya atırsa-atsın, Azərbaycan demokratiya yolu ilə gedir. Bizdə azad seçki keçirilir, şəffaf şəkildə referendum keçirilir. Biz bir çox ölkələr, xüsusilə özlərini demokratiyanın beşiyi sayan ölkələr üçün nümunə ola bilərik. Gəlsinlər, bizim təcrübəmizi öyrənsinlər. Referendumun ikinci əsas nəticəsi ondan ibarətdir ki, Azərbaycan xalqının mütləq əksəriyyəti təklif olunan dəyişikliklərə öz dəstəyini verdi. Bu da əslində, bizim siyasətimizə növbəti dəfə xalq tərəfindən verilən böyük dəstəkdir. Azərbaycan xalqı bu dəstəyə sadiqdir və görür ki, bizim siyasətimizə alternativ siyasət yoxdur".

Dövlət başçısı ölkəmizdə həyata keçirilən böyük mötəbər tədbirlər arasında Roma Papası Fransiskin Azərbaycana rəsmi səfərini xüsusilə qeyd edib: "Bu, tarixi bir səfər idi və Roma Papası Bakıdan bütün dünyaya çox açıq mesajlar göndərdi. O cümlədən, Azərbaycanda multikulturalizmin vəziyyəti ilə bağlı onun dəyərli fikirləri həm həqiqəti əks etdirir, həm də dünya katoliklərinin rəhbərinin bu işlərə qiymətinin gözəl təzahürü idi. Bax, biz bu işləri görürük. Amma ətraf yanır, yan-yörə alovlanır, risklər artır. Biz isə öz xoşbəxt həyatımızı və xoşbəxt gələcəyimizi qorumalıyıq və qoruyuruq. Azərbaycanda sülh, əmin-amanlıq, təhlükəsizlik hökm sürür, insanlar rahat yaşayır, quruculuq işləri aparılır. Şəhərlərimiz gözəlləşir, abadlaşır, bütün işlər çox yaxşı gedir".

Prezident İlham Əliyev ölkədə süni qiymət artımının qarşısının alınması və idxaldan asılılığın minimuma endirilməsi ilə bağlı tapşırıqlar verdiyini söyləyib.

Gələn ilin dövlət büdcəsinin yenə də sosial yönümlü olmasının vacibliyini vurğulayan dövlət başçısı bununla belə investisiyayönümlü layihələrin icrasının da diqqət mərkəzində saxlanmasının zəruriliyini qeyd edib.

Dövlət başçısı ilin axırına qədər görüləcək işlər nəticəsində 2016-cı ilin uğurla başa vurulacağına əminliyini ifadə edib.

## DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATLARI

***Respublikanın Daxili İşlər Naziri general-polkovnik Ramil Usubovun dəvəti ilə İran İslam Respublikasının Daxili İşlər Naziri Əbdülrza Rəhmani Fəzli ölkəmizə rəsmi səfərə gəlib.***

Oktyabrın 3-də cənab Əbdülrza Rəhmani Fəzli və onu müşayiət edən şəxslər Fəxri xiyabana gedərək xalqımızın Ümummilli Lideri, müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin abidəsi önünə əklil qoyub, Ulu Öndərin əziz xatirəsini ehtiramla yad ediblər. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı üstünə də tər çiçəklər düzülüb. Dost ölkənin təmsilçiləri Şəhidlər Xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş mərd mübarizlərin məzarlarını da ziyarət edib, onların xatirəsinə ucaldılmış "Əbədi məşəl" kompleksinin önünə əklil qoyublar.

Həmin gün Azərbaycan Respublikasının Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov İran İslam Respublikasının Daxili İşlər Naziri Ə.R.Fəzlinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Qonaqları salamlayan nazir R.Usubov xalqlarımız arasında tarixi, mədəni, dini yaxınlığın mövcudluğunu, Azərbaycanın öz müstəqilliyini yenidən bərpa etdikdən sonra təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş möhkəm dostluq və qonşuluq münasibətlərinin iki ölkənin prezidentləri tərəfindən daha da genişləndirilyini, dövlət başçılarının qarşılıqlı səfərləri, aparılan danışıqlar və imzalanmış sənədlər nəticəsində əməkdaşlığın keyfiyyətcə yeni səviyyəyə yüksəldiyini, cari ilin avqust ayında Bakıda üçtərəfli İran-Azərbaycan-Rusiya Yüksək Səviyyəli Sammitin keçirilməsinin bunun növbəti bariz nümunəsi olduğunu məmnunluqla xatırladıb. O, belə görüşlərin transmilli mütəşəkkil cinayətkarlıq və beynəlxalq terrorizmlə mübarizədə səylərin birləşdirilməsi üçün geniş imkanlar yaratdığını, qlobal xarakter almış transmilli mütəşəkkil cinayətkarlığın təhlükəli növlərinə, xüsusən narkotiklərin qanunsuz dövriyyəsinə və qanunsuz miqrasiyaya qarşı mübarizədə əməkdaşlığın böyük potensiala malik olduğunu, yeni istiqamətlərin





müəyyənləşdirilməsinin zəruriliyini, ikitərəfli əlaqələrin genişləndirilməsində rəhbərlik etdiyi qurumun da maraqlı olduğunu vurğulayıb.

Daha sonra qonaqlara Azərbaycandakı mövcud ictimai-siyasi və kriminogen vəziyyət haqqında ətraflı məlumat verilib. Cari il oktyabrın 18-də respublikamızda dövlət müstəqilliyinin bərpasının 25-ci ilinin tamam olacağını nəzərə çatdıran cənab Ramil Usubov sözügedən müddətdə cəmiyyət həyatının bütün sahələrində qazanılan uğurlarla yanaşı, qarşılaşdığımız çətinliklər, xüsusən Ermənistanın hərbi təcavüzü və onun doğurduğu nəticələr barədə danışıb, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn prinsipləri, ölkəmizin ərazi bütövlüyü və suverenliyi çərçivəsində həllinə İranın hər zaman tərəfdar olduğunu, bir sıra beynəlxalq və regional təşkilatlar çərçivəsində ölkəmizin haqq işini dəstəklədiyini vurğulayaraq, buna görə təşəkkürünü bildirib.

Söhbət zamanı, həmçinin, xidməti fəaliyyətin daha da təkmilləşdirilməsi, yeni texnologiyaların tətbiqi və müasir texniki vasitələrin alınması, demokratik prinsiplərin möhkəmləndirilməsi sahəsində görülən işlər diqqətə çatdırılıb. Nazir son illər Azərbaycanın nail olduğu dinamik inkişafın, qlobal layihələrin həyata keçirilməsində ölkəmizdə yaradılmış, Ulu Öndər və möhtərəm Prezidentimizin öz nitqlərində dəfələrlə vurğuladıqları sabitlik amilinin dayandığını, eyni zamanda, respublikamızda əmin-amanlıq, təhlükəsizlik şəraitindən vətəndaşlarımızla bərabər əcnəbilərin də yararlandıqlarını, iqtisadiyyatımıza xarici investorların və sərmayənin cəlb olunmasında bu amillərin həlledici rol oynadığını xüsusi qeyd edib. Bildirilib ki, ölkəmizin hüquq-mühafizə orqanları sıx, qarşılıqlı əlaqədə cinayətkarlığa, o cümlədən mütəşəkkil cinayətkarlığa qarşı kompleks tədbirlər həyata keçirirlər.

İran İslam Respublikasının Daxili İşlər Naziri Ə.R.Fəzli səmimi qəbula və ətraflı məlumata görə minnətdarlıq edərək deyib ki, həqiqətən belə səfərlər, görüşlər və imzalanmış sazişlərin müddəalarının yerinə yetirilməsi eyni dinə, oxşar mədəniyyətə və tarixi köklərə malik hər iki ölkənin mənafelərinə tam uyğundur və bütün sahələrdə əlaqələrin daha da inkişaf etdirilməsinə kömək göstərir. İstənilən inkişafın təməlində sabitlik amilinin dayandığı barədə həmkarının mövqeyini bölüşən cənab Ə.R.Fəzli İran və Azərbaycandan fərqli olaraq, regionda qeyri-sabit situasiyanın hökm sürdüyünü, istər ikitərəfli, istərsə də çoxtərəli formatda əməkdaşlığın, məlumat və təcrübə mübadiləsinin bölgədəki vəziyyətə müsbət təsir göstərəcəyinə əminliyini bildirib.

Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə edilib.

* * * * *

***Respublikanın Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov sentyabrın 28-də Pakistan İslam Respublikasının federal müdafiə sənayesi naziri Rana Tanvir Hussainin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.***

Qonaqları səmimiyyətlə salamlayan nazir iki dost və qardaş dövlət arasında əlaqələrin zəngin tarixi ənənələrə və dərin köklərə malik olduğunu, Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu münasibətlərin inkişafına hər zaman xüsusi önəm verdiklərini, müstəqilliyimizi tanıyan ilk ölkələrdən biri olan Pakistanın beynəlxalq aləmdə və regional təşkilatlar çərçivəsində hər zaman Azərbaycanı birmənalı şəkildə dəstəklədiyini xüsusi vurğulayıb. Pakistanlı nazirin rəhbərlik etdiyi heyətin Bakıda keçirilən "ADEX 2016" ikinci Azərbaycan Beynəlxalq müdafiə sərgisində iştirakının bütün sahələrdə genişlənən əlaqələrimizin daha bir əyani təzahürü olduğu nəzərə çatdırılıb.

Daha sonra cənab Ramil Usubov Daxili İşlər Nazirliyinin əsas funksiyaları və fəaliyyət istiqamətləri, ölkəmizdə mövcud kriminogen durum barədə qısa məlumat verib.

Dövlət başçılarının siyasi iradəsi və qarşılıqlı səfərləri nəticəsində son illər bütün istiqamətlərdə inkişaf və tərəqqinin müşahidə olunduğunu qeyd edən nazir iki ölkənin Daxili İşlər Nazirlikləri arasında əlaqələrin daha da dərinləşdiyini, transmilli mütəşəkkil cinayətkarlığın əsas növlərindən olan beynəlxalq terrorçuluq, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə əməkdaşlığa dair hökumətlərarası sazişlərin imzalandığını da xatırladıb.

Səmimi qəbula, ətraflı məlumata görə təşəkkür edən cənab R.T.Hussain Bakıda keçirilən "ADEX 2016" ikinci Azərbaycan Beynəlxalq müdafiə sərgisində iştiraklarından məmnunluğunu ifadə edib. O, dövlətlərimiz və xalqlarımız arasında dostluq, qardaşlıq münasibətlərinin həqiqətən dərin köklərə malik olduğunu, əməkdaşlığın daha da inkişaf etdirilməsinin əhəmiyyətini qeyd edib, Azərbaycanın haqq işini bundan sonra da dəstəkləyəcəklərini bildirib.

Mehribanlıq və dostluq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə olunub.

C M Y K



# BELARUS DAXİLİ İŞLƏR NAZİRLİYİNİN DAXİLİ QOŞUNLARININ NÜMAYƏNDƏ HEYƏTİ AZƏRBAYCANDA RƏSMİ SƏFƏRDƏ OLUB





***Oktyabrın 4-də Belarus Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Komandanının 1-ci müavini - Qərargah rəisi polkovnik Matkin Oleq Vladimiroviçin rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana rəsmi səfəri başlayıb.***

Səfər çərçivəsində nümayəndə heyəti əvvəlcə Şəhidlər Xiyabanına gələrək Azərbaycanın azadlığı və suverenliyi uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, məzarları üzərinə çiçəklər düzüblər.

Həmin gün Daxili Qoşunların Baş İdarəsində polkovnik Oleq Matkini Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov qəbul edib.

Görüş zamanı general-leytenant Ş.Məmmədov Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları ilə Belarus Respublikasının Daxili İşlər Nazirliyinin Daxili Qoşunları arasında genişlənməkdə olan əlaqələrin iki ölkə arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafına böyük töhfələr verdiyini qeyd edib.

Polkovnik Oleq Matkin səmimi və qonaqpərvər qəbul üçün dərin təşəkkürünü bildirərək, ölkəmizə rəsmi səfərindən məmnunluq duyduğunu, iki qurum arasında mövcud olan münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyini diqqətə çatdırıb.

Səmimi şəraitdə baş tutan görüşdə qarşılıqlı əməkdaşlığın mövcud vəziyyəti və perspektivləri müzakirə olunub.

Sonra Daxili Qoşunların yaranma tarixi, strukturu, normativ-hüquqi bazası, təlim-tədrisin, təchizatın vəziyyəti və beynəlxalq əlaqələri barədə geniş məzmunlu brifinq verilib.

Görüşün sonunda qonaqlarla xatirə şəkli çəkilib.

Səfər proqramına uyğun olaraq, nümayəndə heyəti Daxili Qoşunların Ali Hərbi Məktəbində tədrisin təşkili və maddi-texniki tədris bazası, kursantlar üçün yaradılmış hərtərəfli şəraitlə də tanış olub.

Belarus Respublikasının Daxili Qoşunlarının zabitləri, həmçinin, 67987 saylı hərbi hissədə də olublar.

Qeyd edək ki, qonaqların paytaxtımızda mədəni gəzintisi də təşkil edilib.

**Mətbuat xidməti**

# 18 OKTYABR AZƏRBAYCANIN DÖVLƏT MÜSTƏQİLLİYİ GÜNÜDÜR

***25 il öncə Azərbaycan Ali Soveti Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul edib. Oktyabrın 8-də işə başlayan növbədənkənar sessiya məsələni 4 gün müzakirə etsə də qərar verməyi bir həftə sonraya saxlayır. Nəhayət, 1991-ci il oktyabrın 18-də Ali Sovetin sessiyasında tarixi sənəd qəbul edilir.***

Ötən əsrin sonlarında Sovetlər Birliyi ideoloji böhran həddinə çatdı. 90-cı illərin əvvəllərində SSRİ-nin demək olar ki, əksər regionlarında millətlərin və xalqların azadlıq hərəkatı başladı. İmperiyanın siyasi beyin mərkəzi Sovet hərb maşınının köməyi ilə müxtəlif bölgələrdə, o cümlədən Bakıda qanlı qırğınlar törətməklə SSRİ-yə süni nəfəs verməyə çalışırdı. Lakin bu mümkün olmadı. 1991-ci ilin avqustunda İttifaqın ləğv edilməsi haqqında qərar verildi və Sovetlər Birliyi dünya xəritəsindən silindi. SSRİ-yə daxil olan digər müttəfiq respublikalar kimi həmin ilin oktyabrın 18-də Azərbaycan Ali Soveti də dövlət müstəqilliyi haqqında konstitusiya aktı qəbul etdi və suveren dövlət kimi Azərbaycan Respublikası dünya birliyinin üzvü oldu.

Dövlət Müstəqilliyi Haqqında Konstitusiya Aktı 1991-ci il oktyabrın 18-də qəbul edilsə də Azərbaycan özünün əsl müstəqilliyini Ümummilli Lider Heydər Əliyevin qayıdışından sonra əldə etdi. 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə gələn Heydər Əliyev özü ilə bərabər Azərbaycana siyasi müdriklik gətirdi. Məhz milli liderin zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı vətənə olan tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. Ulu Öndər ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi, siyasi və mənəvi-psixoloji gərginliyi aradan qaldırdı. Müstəqil Azərbaycan Respublikası möhkəm əsaslar üzərində yeni inkişaf xəttini tutdu. Respublikamızı Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan edən Ümummilli Lider Heydər Əliyev müstəqilliyi qorumaq onu əldə etməkdən qat-qat çətindir məntiqi ilə nəhəng dövlət quruculuğu işlərinə başladı. Ulu Öndər qarşıya çıxan bütün sərhədləri yardı və qısa vaxt ərzində Azərbaycanın səsi ən nüfuzlu beynəlxalq təşkilatların kürsüsündən gəldi. Müstəqilliyin əvəzsiz bir nemət olduğunu və xalqın tarixi taleyində çox önəmli rol oynadığını böyük qürur hissi ilə bəyan edən Heydər Əliyev Azərbaycanın müstəqilliyini əbədi və dönməz etdi.

Təbii ki, əsl müstəqillik öz sərvətlərinin tam sahibi olmaqdır. 1994-cü ilin 20 sentyabrında Heydər Əliyevin müəllifi olduğu nəhəng neft müqaviləsi - "Əsrin müqaviləsi" imzalandı. Bununla da Azərbaycan ilk dəfə olaraq öz sərvətlərinin sahibi kimi çıxış etdi. Dünyanın ən aparıcı dövlətlərinin ən qabaqcıl şirkətlərinin bu kontraktda iştirakı isə ölkəmizin regionda əhəmiyyətini və nüfuzunu artırdı. Azərbaycan iri regional layihələrdə iştirak edərək, Avropa və bütövlükdə, dünya enerji təhlükəsizliyi sisteminə qoşuldu. 1993-cü ildən başlayaraq dövlət müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində görülən işlər və atılan məqsədyönlü addımlar Azərbaycanın bugünki uğurları üçün ən etibarlı təməl oldu. Bir sözlə, əgər müstəqillik, Azərbaycanın suveren dövlət kimi mövcud olması tarixi zərurətdən irəli gələn hadisə idisə, müstəqilliyin əbədiliyi və dönməzliyi Ümummilli Lider Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlı olmuşdur. Məhz Heydər Əliyev faktı yeni və qlobal dünyada ölkəmizin yerini, güclü mövqeyini, artan nüfuzunu müəyyənləşdirdi. Azərbaycanın dünyaya, dünyanın Azərbaycana gərəkli olduğunu sübut etdi.

# DAXİLİ QOŞUNLARDA HƏRBİ ŞURANIN İCLASI KEÇİRİLİB

***Oktyabrın 13-də Daxili Qoşunların Baş İdarəsində hərbi intizamın vəziyyəti, tərbiyə işinin təşkili, qanunçuluğun möhkəmləndirilməsi üzrə fəaliyyətin nəticələri, qarşıda duran məsələlərə və vətəndaşların müraciətlərinə baxılması, qəbulu işinin vəziyyətinə həsr olunmuş Hərbi Şuranın iclası keçirilib.***



**Hərbi Şuranın sədri Daxili İşlər Nazirinin müavini – Daxili Qoşunların Komandanı general-leytenant Ş.Məmmədov iclası giriş sözü ilə açaraq qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı ilə əhatə olunmuş Daxili Qoşunlar 9 ay ərzində qarşıya qoyulmuş bütün xidməti-döyüş tapşırıqlarını uğurla yerinə yetirmiş, mühüm beynəlxalq tədbirlərdə müəyyən edilmiş vəzifələrin öhdəsindən layiqincə gəlmiş, Qoşunların müasir silah-sursatla təchizatı, hərbi qulluqçuların sosial təminatı üzrə fəaliyyət davamlı olaraq aparılmışdır.**

Daxili Qoşunların Komandanı iclasın gündəliyini elan etdikdən sonra birinci məsələ üzrə mənəvi-psixoloji hazırlıq şöbəsinin rəisi polkovnik Mətləb Qənbərov məruzə edib. Bildirilib ki, cari ildə qoşunların şəxsi heyəti ilə tərbiyə işi qanunçuluğun və hərbi intizamın möhkəmləndirilməsinə, nizamnamədənkənar münasibətlərin və xəsarətalma hallarının qarşısının alınmasına yönəlib.

Qeyd edilib ki, xidməti-döyüş tapşırıqlarının xüsusiyyəti nəzərə alınmaqla onların müvəffəqiyyətlə yerinə yetirilməsində psixoloji dözümlülüyün artırılmasına, xidmətin keyfiyyətlə aparılmasında komandir və rəislərin şəxsi nümunə göstərmələrinə xüsusi diqqət yetirilib. Bu məqsədlə müntəzəm olaraq hərbi intizamın vəziyyəti və aparılan tərbiyə işi tədbirləri nəzarətdə saxlanılıb, hər ay təhlil edilərək, Daxili Qoşunlar Komandanlığına məruzə olunub.

İkinci məsələ üzrə Daxili Qoşunların Baş İdarəsinin Katibliyinin rəisi polkovnik-leytenant Rauf Əliyev məruzə edərək bildirib ki, cari ilin 9 ayı ərzində vətəndaşların müəyyən edilmiş qrafikə uyğun qəbulu təmin olunub. Onların müraciətlərinə, ərizə və şikayətlərinə baxılması və haqlı tələblərinin həllinin təmin edilməsi istiqamətində məqsədyönlü işlər görülüb. Bunun üçün Qoşunların veb saytından geniş istifadə edilib.

Daha sonra qeyd edilib ki, daxil olmuş sənədlər və müraciətlər aidiyyəti üzrə icraçılara çatdırılıb və qanunvericilikdə nəzərdə tutulmuş vaxtda icra edilib.

Diqqətə çatdırılıb ki, 2016-cı ilin cari dövrü üzrə bu sahədə maddi-texniki bazanın möhkəmləndirilməsi, informasiya texnologiyalarının xidməti fəaliyyətdə tətbiqi, elektron sənəd dövriyyəsinin təşkili, icra intizamına riayət olunması sahəsində idarəçilik fəaliyyətinin effektivliyi artıb.

Sonra Hərbi Şuranın iclasında bir sıra hərbi hissələrin komandiri və komandirlərin tərbiyə işləri üzrə müavinləri dinlənilib. Çıxış edənlər mövcud nöqsanlar, onların yaranma səbəbləri, başvermə şəraiti ilə bağlı izahat verərək, gələcəkdə bu kimi halların təkrarlanmaması məqsədilə görülməsi zəruri olan tədbirləri diqqətə çatdırıblar.

**General-leytenant Ş.Məmmədov yekun nitqi söyləyərək bildirib ki, 2016-cı ildə qoşunlarda şəxsi heyətlə tərbiyə işinin təşkilində uğurlar əldə edilib, ümumilikdə, bu istiqamətdə mühüm işlər həyata keçirilib. Hərbi intizamın möhkəmləndirilməsində 2015-ci illə müqayisədə nailiyyətlərin qazanıldığını vurğulayan general-leytenant Ş.Məmmədov hərbi hissələrdə və bölmələdə tərbiyə işi tədbirlərinin tam və keyfiyyətlə həyata keçirilməsi, qanunçuluğa riayət edilməsi, hərbi kollektivlərin möhkəmləndirilməsi və nizamnamədənkənar münasibətlərin qarşısının alınmasında ictimai təşkilatların rolundan geniş istifadə edilməsi və digər kompleks tədbirlərin görülməsi barədə müvafiq tapşırıqlar verib.**

O, əminliklə qeyd edib ki, Daxili Qoşunların şəxsi heyəti Azərbaycan Respublikasının qanunlarından, Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin fərman və sərəncamlarından, Daxili İşlər Nazirinin əmr və göstərişlərindən irəli gələn vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcək, ölkədə ictimai təhlükəsizliyin və ictimai qaydanın qorunmasında mətin dayanacaqdır.

**Mətbuat xidməti**

# 99713 SAYLI HƏRBİ HİSSƏNİN 50 İLLİK YUBİLEYİ QEYD EDİLİB



***Sentyabrın 30-da Daxili Qoşunların 99713 saylı hərbi hissəsi 50-ci ildönümünü qeyd edib. Bu münasibətlə hərbi hissədə təntənəli mərasim keçirilib. Mərasimdə Daxili Qoşunlar Komandanının 1-ci müavini-Qərargah rəisi general-mayor Şirin Xəlilov, yerli icra hakimiyyəti orqanlarının nümayəndələri və Daxili Qoşunların veteranları iştirak ediblər.***



Tədbir hissənin döyüş bayrağının sıra meydanına gətirilməsi ilə başlanıb. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və torpaqlarımızın müdafiəsi uğrunda şəhid olan qəhrəmanlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni ifa olunub.

Hərbi hissə komandiri polkovnik Məzahir Ağayev çıxış edərək, hərbi hissənin yaranma tarixi, keçdiyi döyüş yolu, ötən illər ərzində qazanılmış nailiyyətlər barədə ətraflı məlumat verib.

Sonra Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun təbrik məktubunu şəxsi heyətə çatdırmaq üçün söz general-mayor Ş.Xəlilova verilib.

Məktubda yarandığı gündən etibarən torpaqlarımızın toxunulmazlığı uğrunda səngərlərdə Vətənə sədaqətlə xidmət edən, sıralarında milli qəhrəmanlar yetişdirən hərbi hissənin şəxsi heyətinin qarşıya qoyulan tapşırıqları şərəflə yerinə yetirməklə, qoşunların inkişafına layiqli töhfələr verdiyi qeyd olunub.

Həmçinin, hərbi hissənin ötən müddət ərzində istər döyüş meydanlarında, istərsə də ictimai-asayişin qorunması üzrə tapşırıqların yerinə yetirilməsində zəngin döyüş və xidmət təcrübəsi topladığı, təqdirəlayiq inkişaf yolu keçdiyi, hərbi qulluqçuların peşə hazırlığının təkmilləşdirilməsi, tədris bazasının yaradılması və inkişafı istiqamətində çoxsahəli işlər görüldüyü vurğulanıb.

Təbrikdə şəxsi heyətin bundan sonra da Ümummilli Lider, ordumuzun memarı Heydər Əliyevin ideyalarına sadiq qalaraq, Vətən, dövlət və xalq qarşısında öz şərəfli borcunu layiqincə yerinə yetirəcəyinə, Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərdiyi etimadı doğruldacağına, qoşunların qəhrəmanlıq ənənələrini davam etdirəcəyinə əminlik ifadə olunub.

Mərasimdə vəzifə borclarının icrasına məsuliyyətlə yanaşan, şəxsi nümunə, yüksək hərbi intizam nümayiş etdirən bir qrup hərbi qulluqçuya mükafatlar təqdim edilib.

Tədbir bayram konserti ilə davam etdirilib.

**leytenant X.Tağıyeva**



*Şəhidlərimiz*

# SON DÖYÜŞÜ ZƏNGİLANDA OLDU

***Azərbaycan tarixinin şanlı səhifələrindən biri də Vətənin igid oğullarının respublikamızın ərazi bütövlüyü uğrunda keçdiyi döyüş yolu və qəhrəmancasına şəhidlik zirvəsinə yüksələrək gələcək nəsillərə örnək olan əsl həyat hekayəsidir. Onları tanımaq və gələcək nəsillərə çatdırmaq hər birimizin vətənpərvərlik borcudur.***

***Ulu əcdadlarımızın miras qoyub getdiyi Vətən torpaqlarının hər bir qarışı bizim üçün əziz və müqəddəsdir. Bu torpaqlar ona görə müqəddəsdir ki, tarixin müxtəlif dönəmlərində yadelli işğalçılara qarşı döyüşən cəsur oğullarımızın qanı bahasına qorunub. Xalqımız minlərlə şəhid verib, Vətən yolunda.***

***Daxili İşlər Nazirliyinin Daxili Qoşunları da yarandığı gündən hüquq-mühafizə orqanları ilə birgə respublikamızın daxili sabitliyinin mətin keşikçisi olmaqla yanaşı, həm də respublikamızın ərazi bütövlüyü uğrunda aparılan hərbi əməliyyatlarda da fəal iştirak edərək, zəngin döyüş yolu keçmişdir. Bu döyüşlər zamanı qoşunların hərbi qulluqçularından 510 nəfər şəhid olmuş, 268 nəfər itkin düşmüş, 1166 nəfər isə yaralanmışdır.***



**Samiq Məhəmməd oğlu Qəhrəmanov**

Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçən qəhrəman Vətən övladlarından biri də Daxili Qoşunların hərbi qulluqçusu olmuş şəhid sıravi Samiq Məhəmməd oğlu Qəhrəmanovdur.

Sıravi Samiq Qəhrəmanov 1973-cü il avqustun 31-də qədim tarixə malik olan Gəncə şəhərində anadan olub. Orta təhsilini boya-başa çatdığı ulu Nizami yurdunda yerləşən 7 saylı orta məktəbdə alıb.

Məktəbi əla qiymətlərlə başa vuran Samiq Gəncə maşınqayırma texnikumuna daxil olur. O, təhsil almaqla yanaşı, şəhərdə fəaliyyət göstərən 2 saylı Uşaq-gənclər idman məktəbində güləşlə məşğul olurdu. Onu da qeyd edək ki, Samiq idmanın bu növünü daha çox sevirdi. O, güləş üzrə keçirilən ölkə çempionatında qalib gələrək mükafat almış və idman ustası adını qazanmağa müvəffəq olmuşdur. Kim bilir, bəlkə də Samiqin arzusu daha böyük idi. Avropa, dünya, olimpiya çempionu olmaq və Azərbaycanın bayrağını ən yüksək zirvələrə qaldırmaq...

Samiq həm də hərbi komissarlığın nəzdində olan sürücülük məktəbini bitirmişdi.

1991-ci ildə ordu sıralarına çağırılan sıravi S.Qəhrəmanov, bir qədər sonra Zəngilan rayonunun müdafiəsi uğrunda aparılan hərbi əməliyyatlarda yaxından iştirak edir. Neçə dəfə ağır döyüşlərdən uğurla çıxan Samiq mərdliklə vuruşur, torpaqlarımıza təcavüz edən erməni faşistlərinin başına od yağdırırdı.

1992-ci il avqust ayının 21-də Zəngilan rayonunun Qazançılar kəndi uğrunda gedən qanlı döyüş Samiqin son döyüşü oldu. Bu döyüş zamanı Samiq ermənilərin bir postunu susdurmalı idi. O, yoldaşları ilə birlikdə qısa bir vaxtda düşmənin iki səngərini aldı. Lakin üçüncü səngəri götürən zaman Samiq ağır yaralanır. Elə bu yaradan da gözlərini əbədi yumaraq, şəhidlik zirvəsinə yüksəldi.

Sıravi S.Qəhrəmanov haqqında "Azərbaycan" qəzetinin rəsmi internet saytının 08.12.2011-ci il tarixli buraxılışında "Şəhidlərə dərin ehtiramla" başlıqlı məqalə dərc olunmuşdu. Məqalənin müəllifi şəhidin anası Gəncə şəhər sakini Raziyyə Qəhrəmanovadır.

Məqalədə R.Qəhrəmanova şəhid döyüşçünün həyatı və döyüş yolundan bəhs edir:

"Hərbi hissənin komandiri, mayor Vidadi Şükürov (Daxili Qoşunların Qarabağ savaşında ilk döyüşçülərindən olub - A.Ə.) oğlumun mərdliklə vuruşaraq yoldaşlarında da yüksək döyüş ruhu yaratdığını mənə ünvanladığı məktubda xüsusi olaraq vurğulamışdı. O yazırdı ki, qısa bir müddətdə Samiq sübut etdi ki, həqiqətən Azərbaycan xalqının qorxmaz oğludur. Onun bilik və bacarığı diqqətdən kənarda qalmamış, sıravi olmasına baxmayaraq, bölmə komandiri vəzifəsinə təyin edilmişdir".

Ərazilərimizin suverenliyi uğrunda döyüşən bütün oğullarımızın qəhrəmanlıqlarının, şücaətinin bugünki nəslə nümunə olduğunu bildirən şəhid anası "şəhidlərimiz bizim milli qürurumuzdur" deyir.

Ağbirçək ana yazdığı məqalədə həmçinin son zamanlar Şəhidlər Xiyabanında aparılan yenidənqurma və abadlıq işlərini dövlətimizin şəhid övladlarımıza hörmət və dərin ehtiramı kimi qiymətləndirir:

"...Şəhidlər Xiyabanına getmişdim. Gördüklərim məni heyran etdi. Çünki əvvəllər heç belə deyildi. Dağınıq, sistemsiz cərgələrin arasında gəzmək olmurdu. Qəbirlər də hərəsi bir cür, səliqəsiz...

Son vaxtlar şəhər icra hakimiyyətinin təşəbbüsü ilə Şəhidlər Xiyabanı başdan-başa yenidən qurulur. Bütün məzarlar sıra ilə eyni ölçüdə, eyni formada bərpa olunur. Qara mərmər üzərində hər şəhidin adı, soyadı, doğum və ölüm tarixləri ilə yanaşı, şəkli də həkk edilib. Başda da 19 metr hündürlüyündə abidə-kompleksi ucaldılıb. Burada 366 şəhid, 44 naməlum əsgər və 5 Milli Qəhrəman uyuyur. Burada mənim balam Samiq Qəhrəmanov da var".

İndi səliqə-sahmanlı xiyabana baxanda təskinlik tapıram. Bu hörmət, bu ehtiram hər bir şəhidə, o cümlədən elə mənim oğlum Samiqə də ən böyük abidədir".

Nə qədər təsirli olsa da, ananın sözündə həqiqət var. Xalqımız və dövlətimiz Vətən, torpaq uğrunda şəhid olmuş övladlarını unutmur, öz dərin ehtiramını həmişə göstərir.

Şəhid S.Qəhrəmanovun həyat və döyüş yolundan bəhs edən yazılara, həmçinin, Zəngilanın görkəmli ziyalılarından olan Akif Kərimlinin müəllifi olduğu və 1994-cü ildə Bakıda nəşr olunan "Zəngilan şəhidləri" adlı kitabında da rast gəlmək olar. Müəllif qəhrəman döyüşçüyə həsr etdiyi "And içmişdi ki..." başlıqlı məqaləsində şəhid atası Məhəmməd kişinin ona ünvanladığı cavab məktubundan bir parçanı təqdim edir:

"Oğlum Samiq torpağımız uğrunda şəhid olub. Allahdan bir arzum var ki, Azərbaycanın mərd əsgərləri düşmənləri diz çökdürsün, ailəmlə birlikdə oğlumun qoruduğu Zəngilan torpağına ziyarətə gəlim. Oğlum and içmişdi ki, son damla qanına kimi vuruşacaq. Nə demişdisə, elə də elədi".

Samiq kimi mərd oğullarımız Silahlı Qüvvələrimizin tərkibində bu gün də Vətənimizə şərəflə xidmət edirlər. İnanırıq ki, qüdrətli ordumuz tezliklə düşmən tapdağı altında olan yurdlarımızı, o cümlədən də doğma Zəngilanımızı azad edəcək, soydaşlarımız öz dədə-baba yurdlarına qovuşacaqlar.

**Allah bütün şəhidlərimizə rəhmət eləsin!**

**kapitan A.Əhmədov**

# TƏMİNAT BÖLÜYÜNÜN ŞƏXSİ HEYƏTİ HƏRTƏRƏFLİ HAZIRLIĞA MALİKDİR

***"Əsgər" qəzetinin ötən sayında 17071 saylı hərbi hissənin bir neçə bölüyünün həyata keçirdiyi xidməti-döyüş fəaliyyəti haqqında məlumat vermişdik. Təminat bölüyü də hərbi hissədə nümunəvi xidməti ilə fərqlənən bölmələrdəndir.***







Avtomobil, rabitə, təminat və xüsusi vasitələrin tətbiqi bölmələrinin təminat taqımlarından ibarət olan bölmə üzərinə düşən bütün növ tapşırıqları uğurla yerinə yetirir. Bir sıra (hərbi şəhərcikdə yaşayış binasının mühafizəsi üzrə patrul nəfəri, qərargah kuryeri, rabitə növbətçisi, yeməkxana, avtopark və s.) naryadları yerinə yetirən təminat bölüyünün şəxsi heyəti bilik və bacarıqlarının artırılması istiqamətində daima çalışır, vəzifələrindən irəli gələn tapşırıqların icrasına məsuliyyətlə yanaşır.

Bölük komandiri baş leytenant Müzabil Mehdiyev şəxsi heyətin xidməti-döyüş fəaliyyəti barədə danışarkən bildirdi ki, patrul heyətinə intizamlı, tələbkar, nümunəvi sıra hazırlığı olan, fiziki cəhətdən sağlam hərbi qulluqçular cəlb olunur. Onun sözlərinə görə, xidmətə çıxmazdan əvvəl şəxsi heyətlə təlimat məşğələləri keçirilir, müvafiq mövzularda söhbətlər aparılır, mənəvi-psixoloji durumları bir daha öyrənilir, yerinə yetirəcəkləri xidmətin məsuliyyəti izah olunur. Postlarda xidmət aparar-kən nizam-intizamlı, ayıq-sayıq olmaq, hər hansı bir xoşagəlməz hadisə ilə rastlaşdıqda aidiyyəti üzrə dərhal məruzə etmək, bir sözlə, hərbi qanunvericilikdə nəzərdə tutulan bütün qaydalara ciddi əməl etmək tələb olunur. Sonra hər taqım öz təyinatına uyğun olaraq xidmətə başlayır. Məsələn, avtomobil taqımı avtoparkda xidmətini təşkil edərək, nəqliyyat vasitələrinin giriş-çıxışını tənzimləyir.

Rabitə taqımından döyüş postuna təyin olunmuş hərbi qulluqçu isə davamlı rabitə əlaqəsini təmin edir, xətlərin sazlığını mütəmadi olaraq yoxlayır və alınan məlumatları vaxtında aidiyyəti xidmətlərə çatdırır.

Bilik və bacarıqlarının, eyni zamanda, peşə vərdişlərinin artırılması məqsədilə hər taqım müntəzəm olaraq öz təyinatlarına uyğun olaraq məşğələlərə cəlb olunur. Məşğələlərin təşkil olunub keçirilməsində leytenant İlkin Məmmədovun əməyini vurğulamaq olar. Təlim və məşğələlərdə fəallıqları ilə seçilən, habelə xidmətləri müsbət qiymətləndirilən hərbi qulluqçulardan çavuş Səlim Hacızadənin, əsgərlər Orxan Əliyevin, Eldar Cəfərovun, Mail Qurbanovun və Cəlil Cəlilzadənin adlarını qeyd edə bilərik.

**baş leytenant T.Əlizadə**

# ZƏNGİLAN RAYONUNUN İŞĞALINDAN 23 İL ÖTÜR

***Zəngilan rayon kimi 1930-cu ildə təşkil edilmişdir. Kiçik Qafqazın cənub-şərqində, Arazın sol sahilində yerləşir. Qərbdən Ermənistan, cənubdan isə İranla sərhəddir. Ərazisi 707 kvadratkilometr, əhalisi 37 min nəfərdir.***

***Ölkəmizin səfalı yurdlarından biri olan Zəngilan rayonu Araz çayı boyunca Kiçik Qafqaz dağlarının cənub tərəfində yerləşir. Sıldırımlı qayaları, laləli düzləri, meşələri rayonun təbii gözəllikləri hesab olunur.***



Ermənistanın ərazi iddiası ilə ölkəmizə qarşı apardığı müharibə rayonlarımızın bir-bir işğalı ilə nəticələndi. Beləliklə, sıra hər tərəfdən mühasirə vəziyyətinə düşmüş Zəngilana çatdı.

Erməni silahlı birləşmələri əvvəlcə Qazançı, Seyidlər, Dərəli, Ağkənd, Pirveyis, Günqışlaq kəndlərinə daxil olaraq evlərə od vurdular. Rayonda, ilk olaraq, bu kəndlər ermənilərin işğalına məruz qaldı. Beləliklə, 1992-ci ilin sonunadək Zəngilanın 13 yaşayış məntəqəsi, bir çox strateji yüksəklikləri düşmənin əlinə keçdi. Bununla da rayonun işğalının əsası qoyuldu.

Kiçik qruplarla mübarizə aparan və rayonun könüllülərindən təşkil olunmuş özünümüdafiə dəstələri düşmənin ağır texnika və çoxsaylı canlı qüvvəsinə qarşı mərdliklə vuruşurdu. Lakin qüvvələr qeyri-bərabər idi. Ermənistan, demək olar ki, bütün hərbi gücünü bu rayonun işğalına sərf etmişdi. Hərbi təyyarələr belə hücumda iştirak edir və rayonun mərkəzini bombalayırdı. Ciddi müqavimətə baxmayaraq, vəziyyət daha da çətinləşirdi. Çünki düşmən döyüşə əlavə qüvvələr cəlb edir, təzyiqi artırırdı. Dörd gün ərzində, əsasən, Mehri, Qafan, Gorus ərazilərindən aramsız hücuma keçməklə qüvvələrimizi bu istiqamətə cəlb edən düşmən beşinci gün - oktyabrın 27-də səhər Cəbrayıl-Qubadlı istiqamətindən cəbhəni yardı.

Üç istiqamətdə hücuma keçən ermənilər rayonu mühasirəyə aldılar. Mehri istiqamətində hərəkət edən düşmən yüksəklikləri ələ keçirib, Vejnəli və Ağbənd kəndlərini işğal etdi. Qafan istiqamətində hərəkət edən daşnaklar Bürünlü, Şayıflı, Göyəli kəndlərini tutub rayon mərkəzinə gedən yola çıxdılar. Qubadlının işğal edilmiş ərazilərindən hərəkət edib Saldaş, Çərəli, Mollalı, Qiyaslı, Ulaşlı, Əbilcə, Qarakişi, Tinli, Xocahan, Ağbis kəndləri və Ağbis yüksəkliklərini ələ keçirdilər. Sığırt və Bartaz yüksəklikləri tutulduqdan sonra - 1993-cü il oktyabrın 29-da Zəngilan rayonu faktiki olaraq işğal edildi.

Təxminən 34 min əhali İran İslam



Respublikasının sərhədinə - Araz çayı kənarına toplaşmışdı. Araz çayını isə keçmək mümkün deyildi. O zaman dövlət başçısı Heydər Əliyevin birbaşa müdaxiləsindən sonra İran hökuməti ilə danışıqlar aparıldı və Araz çayı üzərindəki bənddə suyu bağladılar. Yalnız bundan sonra əhali çayı keçib İran vasitəsilə Azərbaycanın müxtəlif regionlarına pənah gətirdi. Hazırda zəngilanlılar paytaxt Bakı da daxil olmaqla, respublikanın müxtəlif bölgələrinə səpələnmiş və məcburi köçkün həyatı yaşamaqda davam edirlər.

Beləliklə, 1988-ci ildə başlayan, 1994-cü ilə qədər davam edən erməni təcavüzü və Ermənistanın Azərbaycana qarşı elan olunmamış müharibəsi nəticəsində 20 faiz torpağımız işğal edildi. Minlərlə soydaşımız şəhid oldu. Dövlətimizə milyardlarla manat ziyan vuruldu. Regional infrastruktur tamamilə dağıdıldı. Milyondan artıq soydaşımız qaçqın və məcburi köçkünə çevrildi. Bütün bunlar yalnız bir şeyə görə edildi - sərsəm "Böyük Ermənistan" xülyası naminə. Doğrudur, Ermənistanın Azərbaycan torpaqlarını qeyd-şərtsiz qaytarması barədə BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi olsa da düşmən dövlət bu günə qədər dünyanın ən böyük təşkilatının münaqişəyə dair bu rəylərini faktiki olaraq nəzərə almır. Bu, azmış kimi, işğal olunmuş ərazilərimizə, o cümlədən, Zəngilan rayonuna son vaxtlar birbaşa Ermənistanın dəstəyi ilə Suriyadan və Ermənistanın digər rayonlarından kütləvi şəkildə erməni əhalinin köçürülməsi həyata keçirilmişdir. Tarixi və hüquqi cəhətdən Azərbaycanın ayrılmaz tərkib hissəsi olması heç bir mübahisə doğurmayan Zəngilan və bütövlükdə digər işğal olunmuş ərazilərimiz bu gün erməni talançılığının və qəsbkarlığının qurbanıdır. Dünyanın böyük dövlətləri, nüfuzlu təşkilatları isə hələ də ermənilərin bu özbaşınalıqlarına dözümlü yanaşmaqda davam edirlər.